1. Azərbaycan Respublikası Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə (TSİİL) ilə əlaqədar olan xərcləri ödəmək üçün Beynəlxalq İnkişaf Assosiasiyasından kredit almışdır və həmin kredit vəsaitlərinin bir hissəsini 4394AZ-NCB-092 nömrəli Müqavilə çərçivəsində **Bakı şəhəri Yasamal rayonu 225 nömrəli orta məktəbin** təmirinə çəkilən qanuni xərclərin ödənilməsinə sərf etmək niyyətindədir.

2. Borcalan tərəfindən TSİİL-in icraçısı təyin edilmiş Azərbaycan Respublikasının Təhsil Nazirliyi bu Tenderdə İştirak üçün Dəvət (TİD) əsasında **Bakı şəhəri Yasamal rayonu 225 nömrəli orta məktəbin** təmiri üzrə möhürlənmiş bağlı zərfdə tender təkliflərini qəbul edir:

3. Tender sənədləri (və bunların əlavə nüsxələri) **100 manat** (AZN) məbləğində geri qaytarılmayan vəsaitin ödənilməsindən sonra Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1008, Xətai prospekti, 49 ünvanında yerləşən Təhsil Nazirliyinin Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin Əlaqələndirmə Qrupundan (LƏQ) əldə oluna bilər. Bu məbləğ LƏQ-in *(LƏQ-in VÖEN-i 1500489231)* Bakı şəhəri, AZ1005, Nizami küçəsi, 67 ünvanında yerləşən Azərbaycan Beynəlxalq Bankının Bakı filialındakı (Bankın VÖEN-i 9900001881, *M/h 0137010002944, KOD: 805045, SWIFT KOD: IBAZAZ2X*) **33308029449330114120** nömrəli hesabına ödənilməli və müvafiq bank sənədi LƏQ-ə təqdim olunmalıdır. Bu tenderdə iştirak etmək marağında olan İddiaçılar həmin ünvandan əlavə məlumat əldə edə bilərlər.

4. Tender təklifləri tender təkliflərinin açılışından sonra 90 (doxsan) gün ərzində qüvvədə qalmalıdır və hər bir lot üzrə Tender Təklifinə Təminat Bəyannaməsi ilə müşayiət olunmalıdır.

5. Tender təklifləri **16 may 2011-ci il tarixdə yerli vaxtla saat 16.00-dan** gec olmayaraq Bakı, şəhəri, Xətai prospekti, 49 ünvanında yerləşən Azərbaycan Respublikası Təhsil Nazirliyi Təhsil Sektorunun İnkişafı Layihəsinin Əlaqələndirmə Qrupuna (2-ci mərtəbə) təqdim edilməlidir. Elektron təkliflərin təqdim edilməsinə icazə verilmir. Tender təklifləri açılışda iştirak etməyi qərara almış İddiaçıların nümayəndələrinin iştirakı ilə **16 may 2011-ci il tarixdə yerli vaxtla saat 16.10-da** Bakı, şəhəri, Xətai prospekti, 49 ünvanında yerləşən Təhsil Nazirliyi binasının 4-cü mərtəbəsində yerləşən böyük zalında açılacaqdır.

6. Gecikdirilmiş tender təklifləri rədd ediləcək və açılmadan geri qaytarılacaqdır.


**Azərbaycan Respublikasının Təhsil Nazirliyi**

**Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin Əlaqələndirmə Qrupu**

**Bakı şəhəri, AZ1008, Xətai prospekti, 49**

**Tel: +994 (12) 496-37-59/60**

**Faks: + 994 (12) 496-93-68**